İki sahil.- 2019.- 22 iyun.- S.17

**Orxan Vahidoğlu,**
*"İki sahil"*

# Ürəklərdə yaşayan Vətən oğlu



Ürəyi hər zaman Vətən eşqi ilə döyünən, onun yolunda şəhidlik zirvəsinə ucalan Elşən Əlihəsən oğlu Həsənov yaşasaydı, indi 34 yaşı tamam olardı. Ömür yolu 19 il çəkdi. Amma xalqına elə bir şərəf gətirdi ki, qərinələr boyu hər gələn nəsil onu ehtiramla qəlbində yaşadacaq. Çünki Elşən qoynunda dünyaya gəldiyi torpağı öz qanı bahasına yaşadan, onu qürurla dünyaya göstərən oğullardan idi.

Elşən Həsənov Lerik rayonunun Murya kəndində anadan olmuşdu. Yaxşılıq, xeyirxahlıq, səxavət ailənin mayasında olduğu üçün bu ocaqda boy atanlar ömür paylarını təmiz, namuslu yaşamağı bacarırlar. Elşən 2003-cü ildə Vətən qarşısında əsgəri borcunu yerinə yetirməyə başlayır. Lazımi anlarda saf, məğrur vicdanı onu xəbis ermənilərə qarşı qanlı döyüşlərdən üzüağ çıxardır. Zirvə qartalı tək sorağı həmişə qaynar nöqtələrdən gəlir. Cəsurluğu, qorxmazlığı əsgər yoldaşlarına da nümunə olur. Getdiyi çox çətin əməliyyatlarda düşməni niyyətini ürəyində qoyur. Bir sözlə, Vətən naminə heç bir çətinlikdən çəkinmədən xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlir. Dostları arasında da mərdliyi, sədaqəti ilə yalnız hörmət qazanır.

Təəssüf ki, Elşən də taleyin acı hədəfindən yayına bilmir. 2004-cü ilin may ayında Vətənə müqəddəs övladlıq borcunu verən yerdə böyük arzularla döyünən ürəyi düşmən gülləsinə tuş gəlir. Və qeyrət, sədaqət rəmzi olaraq əbədi yaddaşlara köçür. Bu gün bütün Lerik camaatı öz qəhrəman oğlu ilə fəxr edir, onun əziz xatirəsini uca tutur.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*